***Altunay ƏSGƏR***
*AMEA Folklor İnstitutu*
*Folklorun toplanması və sistemləşdirilməsi şöbəsi*
*asgeraltunay@gmail.com*
*https://orcid.org/0009-0000-2557-237X*
*https://doi.org/10.59849/2309-7922.2025.2.205*

# TAPMACALARIN SİSTEMLİ KATALOQU VƏ ONUN ELMİ-PRAKTİKİ ƏHƏMİYYƏTİ

**XÜLASƏ**

Yazıda tapmacaların sistemləşdirilməsi prinsiplərindən və onun elmi-praktiki əhəmiyyətindən bəhs olunur. Qeyd olunur ki, sistemləşdirmə hər bir janrın təbiətinə uyğun şəkildə aparılır. Tapmacalar da bu baxımdan istisna təşkil etmir. Tapmacaların mövzular üzrə sistemləşdirilməsi onun həqiqi mənzərəsini göstərməklə yanaşı, araşdırma məqsədi ilə ondan istifadəni də asanlaşdırır. Yazıda kataloqdan verilən nümunə bunu aydın şəkildə göstərir.

**Açar sözlər:** tapmaca, janr, sistemləşdirmə, kataloq

***Altunay ASGAR***

## THE SYSTEMATIC CATALOGUE OF RIDDLES AND ITS SCIENTIFIC-PRACTICAL SIGNIFICANCE

**Summary**

The article discusses the principles of systematizing riddles and highlights their scientific and practical significance. It is emphasized that systematization should be carried out in accordance with the nature of each genre. The classification of riddles must also be conducted in a way that reflects the specific characteristics of the riddle genre. Classifying riddles by thematic categories not only provides a clearer picture of their overall structure but also facilitates their use for research purposes. The example provided from the catalog clearly demonstrates this point.

**Keywords:** riddle, genre, systematization, catalog

***Алтунай АСКЕР***

## СИСТЕМНЫЙ КАТАЛОГ ЗАГАДОГ И ЕГО НАУЧЬНО-ПРАКТИЧЕСКОЕ ЗНАЧЕНИЯ

**Резюме**

В статье рассматриваются принципы систематизации загадок, а также их научно-практическое значение. Отмечается, что систематизация должна осуществляться в соответствии с природой каждого жанра. Систематизация загадок также должна проводиться с учётом особенностей, присущих жанру

загадки. Тематическая классификация загадок не только позволяет более чётко представить их общую картину, но и облегчает их использование в исследовательских целях. Приведённый в статье пример из каталога наглядно подтверждает данный вывод.

**Ключевые слова:** загадка, жанр, систематизация, каталог

Bütün elm sahələrində olduğu kimi, folklorşünaslıqda da hər hansı bir problemin araşdırılması materialın toplanmasından başlayır. Əslində araşdırma materialının toplanması işin ən çətin tərəfidir. Çünki material çap olunmuş ən müxtəlif toplulara paylanmış vəziyyətdədir. Çap olunmamış materiallar isə arxivdə (müxtəlif qovluqların arasında) saxlanılır. Bundan başqa, bu qovluqlarda saxlanan materiallar müxtəlif janrlara aiddir və onları bir araya gətirmək üçün qovluqları səhifələmək lazımdır. Beləliklə, deyilənlər fonunda araşdırma materiallarını bir yerə toplamanın necə çətin olduğunu xüsusi şəkildə vurğulamağa ehtiyac yoxdur. Folklorşünaslar bu məsələyə əncam çəkmək üçün müxtəlif çarələr axtarmışlar. Folklor mətninin janr xüsusiyyətlərinin öyrənilməsi və süjet və motivlərinə görə kataloqlaşdırılması belə belə cəhdlərdəndir. Mətnin janr xüsusiyyətlərinin öyrənilməsi praktik baxımdan nəşr olunmuş kitablarda mətinlərin janr baxımından yerləşdirilməsinə və janra görə arxivləşdirməyə xidmət edir. Folklor mətnlərinin kataloqlaşdırılması da oxşar məqsəd daşıyır. Bəllidir ki, katoloqaşdırma həm janr, həm də motiv tərkibi üzrə aparılır. A.Aarne-Tomsonun, Eberhard-Boratavın və s. kataloqları nağıl janrı üzrə, S.Tomsonun kataloqu isə müxtəlif janrların motivləri üzrə aparılmışdır. Belə kataloqlar bir tərəfdən hər hansı bir janrın mənzərəsini yaratmaq, janrın süjet zənginliyini və toplamanın səviyyəsini öyrənmək, eləcə də araşdırma zamanı materialdan istifadəni araşdırmaq baxımından böyük əhəmiyyət daşıyır. Azərbaycan folklorşünaslığı da kataloqlaşdırma baxımından müəyyən uğurlara imza atıb. İ. Rüstəmzadənin “Azərbaycan nağıllarının sistemli kataloqu” (Bakı, 2013) və E.Əmirlinin “ Azərbaycan əfsanələrinin süjet tərkibi” adlı elmi işləri bu qəbildəndir (Bakı, 2023). Adından da göründüyü kimi, bu kataloqlardan birincisi nağıllara, ikincisi isə əfsanələrə həsr olunmuşdur. Biz də, bu işlərin davamı kimi, Azərbaycan tapmacalarının kataloqunu tərtib etmək istəyirik.

Məlum olduğu kimi, bizdən öncəki kataloqlar süjetin məzmununa görə tərtib olunmuşdur. Qeyd edək ki, Q.L.Permyakovun atalar sözlərinin kataloqunu çıxmaq şərti ilə folklor janrlarının strukturuna görə sistemləşdirilməsi təcrübəsi dünya folklorşünaslığında yoxdur. Folklorun başqa janrları struktur xüsusiyyətlərinə görə öyrənilsə də onların struktur xüsusiyyətlərinə görə kataloqlaşdırılması təcrübəsi folklorşünaslıqda yayılmamışdır. Biz də tapmacaları janrın xüsusiyyətini nəzərə almaqla sistemləşdirmək məcburiyyətində qaldıq.

Tapmacaların struktur xüsusiyyətlərinə aid folklorşünaslıqda müəyyən araşdırmalar mövcuddur. Bu folklor janrının struktur baxımdan klassifikasiyası da aparılmışdır. Buna baxmayaraq, bu janr da strukturuna görə sistemləşdirilməmişdir. Bununla bərabər, onun strukturuna görə sistemləşdirilməsi praktik baxımdan

o qədər də işə yaramır. Fikrimizcə, kataloqlaşdırma elə aparılmalıdır ki, janrın mənzərəsini görməyə və araşdırıcının işini asanlaşdırmağa şərait yaratsın. Biz Azərbaycan tapmacalarının kataloqunu tərtib edərkən bu məqsədi qarşıya qoymuşuq.

Kataloqlaşdırma hər bir janrın təbiətinə görə aparılır. Tapmacaların kataloqu da bu baxımdan istisna təşkil etmir. Məlumdur ki, tapmacalar (cavabı olmayan və ya cavabı mətndə olan tapmacaları çıxmaq şərti ilə) iki hissədən ibarətdir: mətn və cavab. Sistemləşdirmə mövzular üzrə aparılır. Mövzu cavablarda əks olunur. Ona görə də mövzular cavablara görə müəyyən olunur. Qeyd edək ki, sistemləşdirməni bütöv şəkildə mövzular üzrə aparmaq olmur. Məlum olduğu kimi, cavabsız tapmacalar da mövcuddur. Belə tapmacaların cavabı mətnin içərisində gizlənir. Onların cavabını tapmaq üçün mətnin içərisinə diqqət yetirmək lazımdır. Məsələn:

Yağış yağar yer yaş olar,
Çatı qırılar dörd baş olar,
Dəvənin balası köşək olar,
Onu tapmayan eşşək olar (şəxsi arxiv)

Bu tipli tapmacalar xüsusi qrup halında verilir. Çoxcavablı tapmacalar da bu qəbildəndir. Belə tapmacaların iki, üç, dörd cavabı ola bilir və bu cavablar müxtəlif mövzulara aid ola bilir. Bu səbəbdən onları xüsusi qrup halında vermək məcburiyyətindəyik. Biri-birinə bağlı predmetlərin cavabları mövzu qrupları içərisində verilir. Məsələn: tüfəng, güllə.

Beləliklə, kataloqda aşağıdakılar nəzərə alınır.

– Cavablar mövzu üzrə qruplaşdırılır.

– Mövzu qruplarının içərisində cavab-başlıqlar verilir.

– Mətnlər sıra nömrəsi ilə verilir.

– Kataloq tərtib olunarkən variantlar nəzərə alınır və onlar rəqəmlərlə ifadə olunur. Birinci rəqəm (məsələn: 1) tapmacanın sıra nömrəsini, ikinci rəqəm isə (məsələn: 1.1. və ya 1.2., 1.3.) variantın sıra nömrəsini ifadə edir. Variantı olmayan mətnin sadəcə sıra nömrəsi verilir.

– Mövzu çərçivəsində iki və daha çoxcavablı tapmacalar mətndən sonra verilir.

– Verilən mətnlərin hər birinin qaynağı mətndən sonra qeyd olunur.

Bu cəhətləri əsas götürəndə aşağıdakı mənzərə yaranır:

SİLAHLAR

QILINC

1. Altı taxta, üstü taxta,
İçində cəllad hasası (N.S. səh.171).
(Qılınc)

2. Bir ağacım var yarpaqsız, budaqsız,
Ona çıxan qalar əlsiz-ayaqsız (N.S. səh.172).
(Qılınc)

3. Quru qovaq içində qudurmuş ilan (N.S. səh.173).
(Qılınc)
4. Göydən düşdü daş,
Bişib oldu aş.
Kəsdi, tökdü baş,
Nə aşdı, nə daş (N.S. səh.174).
(Qılınc)
5. Məmmədəli deşikdə,
Qulaqları eşikdə (N.S. səh.175).
(Qılınc)

NİZƏ
6. Atdım atana,
Dəydi adama.
Ucu şiş neştər,
Uzunca təhər (N.S. səh.172).
(Nizə)
7. Ərəb əlində,
Dizi belində,
Atın üstündə
Bir ucu yerdə
Bir ucu göydə (N.S. səh.174).
(Nizə)
8. Uzun ağacı ovarlar
Başına papaq qoyarlar (N.S. səh.175).
(Nizə)

XƏNÇƏR VƏ QIN

9. Altı taxta, üstü taxta,
Ortasında dəmir balta (N.S. səh.171 AFA.QZ.XXI səh.222).
(Xənçər )
10.1. O yanı taxta, bu yanı taxta,
İçində var qanlı balta (AFA.İ-T.II səh.295).
(Xənçər )
11. Qurd quyuda, qulaqları bayırda (N.S. səh.173).
(Xənçər)
12. Ağzı var, gerisi yox,
Dərisi var, tükü yox (N.S. səh.171).
(Xəncərin qını)
Alıcan quyuya düşdü,
Qulaqları ilişdi (N.S. səh.171).
(Xəncər və qını)

TÜFƏNG, TAPANÇA, GÜLLƏ
13. Qara qoçum yağlanar,
Meşələrdə buğlanar.
O necə qıfıldır ki,
Açarsızca bağlanar (N.S.səh.173).
(Beşaçılan)
14. Ağaca çıxar
Ağzına tıxar
Hər kəsə dəysə,
Evini yıxar (N.S. səh.171).
(Tüfəng)
15.1.Ağaca çıxar,
......... tıxar,
Hər kəsə dəysə,
Evini yıxar (V.X. səh. 13).
(Tüfəng)
16. Atdım atana,
Dəydi kotana
Dəryada balığa,
Düzdə ceyrana (N.S. səh.172 AFA.Q.VII səh.288).
(Tüfəng)
17.1. Atdım atana,
Dəydi kotana.
Çayda balığa,
Çöldə ceyrana (AFA.Z.XII səh.374).
(Tüfəng)
18. Bapbalaca boyu var,
İldırımnan soyu var,
Əl vurarsan qudurar,
Dünyada od vurar (N.S. səh.172).
(Tüfəng)
19. Bir qundağım var, içində qudurmuş it yatıb (N.S. səh.172 V.X. səh.27).
(Tüfəng)
20. Bir quşum var taxta-dəmir,
Yumurtası adam dəlir (N.S. səh.173).
(Tüfəng)
21. Qalın qamış içində,
22. Xoruz xuda çağırır (N.S. səh.173).
(Tüfəng)
23. Qara qayış dizdə qalır,
Açılmağı bizdən alır (N.S. səh.173).
(Tüfəng)

23.1 Qara qayış bizdə qalır,
Açılmağı bizdən alır (Ə.A. səh.243).
(Tüfəng)
24. Qara toyuq qaqqıldar,
Qanadları şaqqıldar.
Uçsa ildırım çaxar,
Dumanı dağa qalxar (N.S. səh.173).
(Tüfəng)
24.1 Qara toyuq qaqqıldar,
Qanadları şaqqıldar (Ə.A. səh.243).
(Tüfəng)
25. Qaranlıq damdan qulun mələr (N.S. səh.173).
(Tüfəng)
26. Evimizdə kəndi var,
Kəndinin kəməndi var,
Göydə gedən quşların,
Ayağında bəndi var (N.S. səh.174).
(Tüfəng)
27. Ağac başından baxar,
Cümlə cahanı yıxar (AFA.ŞV.XI səh.286).
(Tüfəng)
27.1. İynə gözünnən baxar,
Hədəfinə od yaxar (N.S. səh.174).
(Tüfəng)
27.2. İynə ucundan baxar,
İstanbula od yaxar (AFA.Ş.IV səh.429).
(Tüfəng)
27.3. İynə gözündən baxaram,
Cümlə cahanı yıxaram (V.X. səh.57).
(Tüfəng və gülləsi)
28. Kor öküz koldan baxır,
Ağzından ayran axır (N.S. səh.174 Ə.A. səh.243 AFA.G.III səh.645).
(Tüfəng)
28. 1. Kor öküz koldan baxır (AFA.Z.XII səh.374 AFA.B-Q.XXII səh.249).
(Tüfəng)
28.2. Göl dalında kor öküz yatır (V.X. səh.83).
(Tüfəng)
29.Qara atı yağladım,
Zəhmanaya bağladım (Ə.A. səh.243).
(Tüfəng)
29.1. Qara atımı yağladım,
Qaya dibinə bağladım (N.S. səh.173).

(Tapança)
30. İnsan əlaməti var,
Tünrı qüdrtəi var (AFA.B-Q.XXII səh.248).
(Tüfəng)
30. 1. Dəmirdən qatı,
Qılıncdan iti,
Allah qüdrəti,
Bəndə əlində (AFA.ŞV.XI səh.283).
(Tüfəng)
30.2. Adamdan atı,
Dəmirdən qatı.
Adam əhləti,
Tanrı qüdrəti (AFA.G.III səh.628).
(Tüfəng)
30.3. Ələmdən atı,
Dəmirdən qatı,
İnsan hilləti,
Tanrı qüdrəti (AFA.QR.V səh.246).
(Tüfəng)
31.Yarı ağac, yarı dəmir,
İnsaf etmir, yazıx demir.
Özü uzaxda durur,
Gördüyün vuruf yıxır (AFA.Q.VII səh.288).
(Tüfəng)
32. Qurğu,
Dumduru suyu
İçən ölür,
İçməyən qalır (AFA.İ-T.II səh.291).
(Tüfəng)
33.Hapı hapıynan, kərki sapıynan,
Qırır milləti, özü əliynən (AFA.İ-T.II səh.297).
(Tüfəng)
34. Bir kişi,
Əlinə aldı bir şişi,
Bir qoyun aldı –
Nə erkək oldu, nə dişi (AFA.B-Q.XXII səh.245).
(Tüfəng)
35. Bir quşum var, balası özünnən tez uçar. (N.S.səh.172)
(Tüfəng və güllə)
36. Dar küçədə qulun mələr,
Qabaqdakın yerə sərər (N.S. səh.173).
(Tüfəng, güllə)

37.İynə gözündən baxaram,
Cümlə cahanı yaxaram (Ə.A. səh.243).
(Güllə)
38. Əldə fitil,
Ordan itil
Hara dəysə,
Qalar mitil (N.S. səh.174).
(Top gülləsi)
39.Bir quşum var düz uçar (N.S. səh.173).
(Güllə)
40.Atdım atana dəydi,
Çöldə kotana dəydi.
Dəryada balığa,
Düzdə ceyrana dəydi (V.X. səh.21).
(Güllə)
41. Bir balaca misri daşı,
Yandırar dağı-daşı (N.S. səh.172).
(Güllə)
41.1. Bir balaca hindili,
Deşin keçər qəndili (N.S. səh.135).
(Güllə)
41.2. Bir balaca misiri,
Bəylər onun yesiri (N.S. səh.172).
(Güllə)
41.3.Bir balaca mıdılı,
Vırdı yıxdı güdülü (V.X. səh.30AFA.Ş.VI səh.69).
(Güllə)
41.4. Bir beləcə midini vırdı yıxdı gidini (V.X. səh.31).
(Güllə)
41.6. Bir balaca midini,
Vurdu, yıxdı gidini (AFA.G.III səh.628 mv).
(Güllə)
41.7. Bir qırıq midi,
Vurdu, yıxdı iyidi (AFA.B-Q.XXII səh.244).
41.8. Bircə belə məngülə,
Bəyləri atdan əndirə (V.X. səh.32).
(Güllə)
42. Dar küçədə qulun kişnər (V.X. səh.44).
(Güllə)
43. Ditdilicə məndirə
Bəyi yerə əndirə.
Anası qundaqda yatır,

Oğlu bazara gedir (N.S. səh.171).
(Güllə və giliz)
43.1. Anası qundaqda yatır,
Oğlu davaya gedir (Ə.A. səh.243).
(Güllə)

Verilən örnəkdə, göründüyü kimi, silah mövzusu ilə bağlı tapmacalar ifadə olunur. Görünən mənzərədən aşağıdakıları müşahidə etmək olur:

- Silahla bağlı yazıya alınmış tapmacalar verilənlərdən ibarətdir.
- Bu tapmacaların yalnız bir hissəsinin variantları mövcuddur.
- Variantsız tapmacalar variantlılarla müqaysədə çoxdur.

Qeyd edək ki, təsvir olunan mənzərə araşdırıcını düşünməyə vadar edir. Məlum olur ki, Azərbaycan tapmacaları o qədər də yaxşı toplanmayıb. Əks təqdirdə, bütün tapmacaların variantı olardı. Folklor mətninin variantlı olmasının onun təbiətinə xas bir hadisə olduğunu nəzərə alsaq məsələnin mahiyyətini anlamaq olar. Bununla bərabər, mövcud mənzərənin təbii olduğunu da söyləmək lazımdır. Məlum olduğu üzrə, Azərbaycanda toplama işi heç vaxt janrlar üzrə aparılmayıb. Başqa janrlar kimi, tapmacalar da ümumi toplamanın bir parçası olub. Yəni sistemli toplama aparılmadığı üçün toplayıcı qarşıya çıxan mətni yazıya alıb. Bu isə toplamanın səviyyəsini müşahidə etməyə imkan verir.

Qeyd edək ki, mətnin variantları onun şifahi həyatını görməyə şərait yaratmaqla bərabər, yazıya alınmış mətnin halını da müşahidə etməyə imkan verir. Məsələn, mətn bir variantda dörd misralı, başqa variantda iki misralı halda qarşımıza çıxır. 30 və 30.2 mətnlərində biz bu halla qarşılaşırıq. Bir neçə variantda dörd misralı olan mətnin bir variantı iki misradan ibarətdir. Bu halın variant və ya zədə olması diqqətlə öyrənilməlidir. Onu söyləmək istəyirik ki, kataloq problemləri üzə çıxarır və araşdırıcıya yardım edir.

Kataloqa baxıb variantları müşahidə etdikcə xalq zəkasının variant yaratma imkanlarına heyrət etməmək olmur. Belə imkanlar yalnız xalq şüuruna məxsusdur və başqa düşüncə tipləri üçün əlçatmazdır.

Şübhəsiz ki, Azərbaycan tapmacalarının kataloqlaşdırılması bu janrın müxtəlif yöndən araşdırılması, onun simasını göstərməklə müxtəlif yöndən araşdırılmasına şərait yaradacaq.

## ƏDƏBİYYAT

1. 100 tapmaca / (Toplayıb tərtib edən: Qasımov H.) – Bakı: Uşaqgəncnəşr – 1958

2. Azərbaycan folklor antalogiyası / (Toplayıb tərtib edən: Axundov Ə. Yenidən işləyəni, nəşrə hazırlayanı və ön sözün müəllifi: Cəfərov Ə.) – Bakı: Çıraq. – 2015

3. Azərbaycan tapmacaları / (Toplayıb tərtib edən: Zeynallı H.) – Bakı: Elm və təhsil. – 2013

4. Balalara hədiyyə / (Toplayıb tərtib edən: Köçərli F.) – Bakı: Şərq-Qərb. – 2013

5. SMOMPK: Azərbaycan folkloru materialları / (Rza Xəlilov, Afaq Xürrəmqızı, Aynur Hüseynova) 3 cilddə. I cild. – Bakı: Elm və təhsil. – 2018

6. SMOMPK: Azərbaycan folkloru materialları. / (Rza Xəlilov,Afaq Xürrəmqızı, Aynur Hüseynova) 3 cilddə. II cild. – Bakı: Elm və təhsil. 2019

7. Tapmacalar / (Toplayıb tərtib edən:Xuluflu V.) – Bakı: Nurlan, 2013

8. Tapmacalar / (Toplayıb tərtib edən: Seyidov N.) – Bakı: Elm, 1971

9. Vətən dili / (Toplayıb tərtib edən: Çernyavevski A.O.) – Tiflis: Levit və Mesniqin. 2 cilddə. I cild. – 1882

10. Vətən dili / (Toplayıb tərtib edənlər: Çernyavevski A.O., Vəlibəyov S.H.) – Tiflis: Kəşkül. 2 cilddə. II cild. 1882